**Azərbaycan xalqı özünün bəşəri duyğuları, insansevərliyi, sülhsevərliyi, eyni zamanda səmimiliyi və təvazökarlığı ilə seçilən xalqdır. Bu xalqın yetirdiyi həm bugünkü, həm də tarixin şanlı səhifələrini yaratmış ulu övladlar da sədaqət və səmimiyyət rəmzinə çevrilən şəxsiyyətlər olublar. Şübhəsiz ki, bu gələcəkdə də belə olacaqdır. Azərbaycanı böyük məhəbbətlə sevən, öz xeyirxah əməlləri, gördüyü mükəmməl işlərilə doğma yurduna daima başucalığı gətirən belə nəcib övladlardan biri də xatirəsi daim ehtiramla yad edilən Əziz Məmmədkərim oğlu Əliyevdir. Onun adı çəkiləndə qəlblərə həzin bir şəfqət çilənir, könüllərə işıq saçılır. Əziz Əliyev zirvələr fəth etmiş xilaskar, çöhrəsindən nur tökülən şəfqətli və fədakar bir insan, həkim, dövlət xadimi kimi daim gözlərimiz önündə canlanır.**



# TƏBABƏTİN SÖNMƏZ ÇIRAĞI

Uzun illər indiki Azərbaycan Tibb Universitetinin və adını daşıdığı Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun direktoru, Azərbaycan Respublikasının Xalq Səhiyyə Komissarı, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin birinci katibi və başqa yüksək vəzifələrdə çalışmış, "Azərbaycan Respublikasının əməkdar həkimi" fəxri adına layiq görülmüş tibb elmləri doktoru, professor Əziz Əliyev 1897-ci ilin yanvar ayının 1-də qədim Azərbaycan torpağında yerləşən İrəvan quberniyasının Hamamlı kəndində anadan olub. Onun atası Əliyev Məmmədkərim Kərbəlayi Qurbanəli oğlu kənd işləri, bəy nəslindən olan anası Zəhra xanım isə evdar qadın olub.

Əziz Əliyev 8 yaşında ikən rus-tatar (Azərbaycan) məktəbinə daxil olub və ilk ibtidai təhsilini həmin məktəbdə alıb. Lakin burada verilən təhsil dərin zəkaya malik olan Əziz Əliyevi qane etməyib və o, 1908-ci ildə İrəvandakı kişi gimnaziyasına qəbul olunub, 1917-ci ildə gimnaziyanı bütün fənlər üzrə əla qiymətlərlə başa çatdırıb. Maddi cəhətdən təhsilini davam etdirmək imkanından məhrum olan Əziz Əliyev məktubla Bakı milyonçu-xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevə müraciət edib və tezliklə ondan həmin vaxt üçün kifayət qədər dəyərli vəsait hesab olunan 300 manat alıb. Elə həmin il o, bu vəsaitin hesabına Peterburqa gedib və attestasiya yolu ilə müsabiqədən keçərək Rusiyanın ən öncül ali tibb müəssisəsi sayılan Hərbi Tibb Akademiyasına daxil olub.

Ə.M.Əliyev elə birinci kursun əvvəllərindən Hərbi Tibb Akademiyasında təhsil almaqla bərabər, boş vaxtlarında Peterburqda səpgili yatalaqla mübarizə əleyhinə təşkil edilmiş dezinfeksiya-təmir briqadasında dezinfeksiyaçı-sanitar vəzifəsində işə düzəlib. Aldığı maaşla özünün minimal güzəranını təmin etməklə yanaşı, valideynlərinə də kömək göstərib. 1918-ci ilin may ayına qədər bu vəzifədə çalışıb və həmin dövrdə Peterburq Hərbi Tibb Akademiyasının ikinci kurs tələbəsi hesab olunub. 1918-ci ildə Əziz Əliyevin atası vəfat edib. O vaxtlar Əziz Əliyevin anasına və kiçik qardaşına xalası Qədirbəyova himayədarlıq edib.

Əziz Əliyev 1918-ci ilin iyun ayının axırında yay tətilini evlərində keçirmək üçün İrəvana gedib. Lakin burada o, dəhşətli mənzərə ilə üzləşib, daşnakların antitürk, antiazərbaycan təbliğatından doğan amansız qəddarlıqlara tab gətirməyib və ailəsini götürüb çətinliklə Naxçıvanın Şərur rayonuna keçə bilib (o zaman İrəvandakı əhalinin 50 faizindən çoxunu azərbaycanlılar təşkil edirdi). Əziz Əliyev bir müddət Şərurda qaldıqdan sonra ailəsini Şahtaxtı kəndinə aparıb. Ailənin ağır vəziyyəti və ermənilərin törətdikləri qırğınların fəlakətli nəticələri Əziz Əliyevi Peterburqa qayıtmaq, təhsilini davam etdirmək imkanından məhrum edib. Lakin o, tibblə əlaqəsini kəsməyib. 1920-ci ilin may ayında İrəvanda məskən salmış daşnak qoşunları silahlı hücuma keçərək, müdafiəsiz Şərur rayonunu, o cümlədən Şahtaxtı kəndini işğal edərək amansız qırğınlar törədiblər. Qanlı qırğından salamat çıxa bilən və didərgin düşən Şahtaxtı əhliylə birlikdə Əziz Əliyevin də ailəsi erməni zülmünə tab gətirməyərək Arazı keçib və Cənubi Azərbaycanın Ərəblər kəndində daldalanıb. Əziz Əliyev fəaliyyətini burada da davam etdirib və həkim köməkçisi vəzifəsində çalışaraq əhaliyə tibb xidmətləri göstərib. 1920-ci ildə erməni faşizminə tab gətirməyən anası Ərəblər kəndində vəfat edib. 1921-ci ilin iyun ayında onlar, nəhayət, Şahtaxtı kəndinə qayıda biliblər və Əziz Əliyev 1923-cü ilin may ayına qədər həmin kənddə orta tibb işçisi, həkim köməkçisi kimi çalışıb.

1923-cü ilin may ayından sonra Əziz Əliyev Bakıya köçüb. Bakıda ilk illərdə ardıcıl olaraq, Azərbaycan SSR Xalq Komissarları Şurasında iş icraçısı, həmin idarənin ümumi şöbəsinin müdirinin müavini, katibin müavini və nəhayət, Respublika Xalq Komissarı Şurasının katibi vəzifəsini yerinə yetirib. Əziz Əliyev bu çətin və məsuliyyətli vəzifələrdə çalışmaqla yanaşı, 1923-cü ildən etibarən yarımçıq qalmış ali tibb təhsilini də böyük uğurla davam etdirib. O, 1927-ci ildə Bakı Dövlət Universitetinin tibb fakültəsini bitirib və daxili xəstəliklər kafedrasında saxlanılıb. Əziz Əliyev həmin kafedrada əvvəl ordinator, sonra isə aspirant, assistent və dosent olub. O, eyni zamanda təhsil aldığı universitetin partiya təşkilatında işə cəlb olunub və xeyli vaxt orada çalışıb.

Əziz Əliyev 1929-1932-ci illərdə Azərbaycan Klinik İnstitutunun rektoru vəzifəsində çalışıb. 1927-ci ildən sonra yerinə yetirdiyi inzibati işlər onun böyük təşkilatçılıq qabiliyyətinə malik olmasını bir daha təsdiqləyib.

Əziz Əliyev İkinci Dünya müharibəsindən həm əvvəlki, həm də sonrakı illərdə Azərbaycanda səhiyyənin təşkili məsələsinə xüsusi diqqət yetirib və onun bu sahədəki əvəzsiz xidmətləri tarixə qızıl hərflərlə həkk olunub. O, Xalq Səhiyyə Komissarlığı müalicə şöbəsinin müdiri, Bakı Səhiyyə Şöbəsinin müdiri, Xalq Səhiyyə Komissarlığında müavin, Xalq Səhiyyə Komissarı və digər vəzifələrdə çalışarkən respublikanın bütün rayonlarını qarış-qarış gəzib, respublikada xalq səhiyyəsinin problemlərinin aradan qaldırılması üçün əməli tədbirlər görüb. Həm özünə, həm də başqalarına qarşı son dərəcə tələbkar olan Əziz Əliyev bütün həyatı boyu ölkəmizdə tibb elminin inkişafına, yüsək ixtisaslı tibb kadrlarının hazırlanmasına çalışıb və həmişə də istədiyinə nail olub.

Azərbaycanın bütün həkimlərinin ustad müəllimi hesab edilən görkəmsli alimin həyatının Azərbaycan Tibb Universiteti (Azərbaycan Tibb İnstitutu) ilə bağlı parlaq səhifələri respublikanın tibb ictimaiyyəti, səhiyyə işçiləri, professor-müəllim heyəti və tələbə kollektivi üçün nümunə olacaq möhtəşəm bir ömür yoludur.

1930-cu ilin may ayının 9-da Bakı Dövlət Universitetinin tibb fakültəsi bazası əsasında Azərbaycan Dövlət Tibb İnstitutunun yaradılması və bundan sonrakı çətin mərhələlərdə instituta rəhbərlik etmək böyük cəsarət tələb edirdi. Əziz Əliyev bu illərdə ADTİ-nin yaradılmasının təşkilatı işlərinin yerinə yetirilməsində mühüm rol oynayan əsas simalardan biri olub və 1932-ci il iyunun 1-dən etibarən həmin institutun rektoru vəzifəsində çalışmağa razılıq verib. Həmin illərdə bir tərəfdən respublikada yüksək ixtisaslı həkimlər hazırlanmasına ciddi ehtiyac duyulması, digər tərəfdən də onların hazırlığını təmin edə bilən kadr qıtlığı, Azərbaycan dilində tibbin bütün sahələri üzrə dərslik və dərs vəsaitlərinin yoxluğu, tədris bazalarının zəifliyi, kitab fondunun lazımi səviyyəyə çatdırılmaması, institutun özünün nəşriyyatının olmaması və digər məsələlər, təhsil ocağının rektorunun işinə böyük maneələr törədərdi. Bu və ya başqa qlobal problemlərin aradan qaldırılması üçün Əziz Əliyev rahatlıq bilmədən gecə-gündüz çalışıb onların bir çoxunun müvəffəqiyyətli həllinə nail olurdu. Tibb İnstitutu sözün həqiqi mənasında inkişaf edərək formalaşırdı. O, var qüvvəsi ilə kövrək addımlar atan Tibb İnstitutunun dünya standartları səviyyəsinə çatmasına çalışır, bu yolda böyük səy göstərərək yeni-yeni uğurlar qazanırdı. Azərbaycan Tibb Universiteti və onun kollektivi bu vaxta qədər keçdiyi şərəfli yolda əldə etdiyi nailiyyətlərə görə səhiyyənin və tibb təhsilinin mahir təşkilatçısı professor Əziz Əliyevə minətdardır.

Əziz Əliyev 1934-cü ilin mart ayının 30-da respublikamızda səhiyyə işlərini canlandırmaq məqsədilə Bakı şəhər Səhiyyə Şöbəsinin müdiri təyin edilib. Ancaq az keçməmiş, 1935-ci il yanvarın 14-də yenidən ADTİ-nin rektoru vəzifəsinə qaytarılıb. 1935-ci il fevralın 1-dən 7-nə qədər Azərbaycan Dövlət Tibb İnstitutunun büdcə məsələlərini həll etmək üçün Tiflisə ezam olunub və ona qədər həlli müşkül sayılan məsələləri asanlıqla yoluna qoyaraq, Bakıya qayıdıb.

Əziz Əliyev 1935-ci il mayın 8-də xidməti işlə əlaqədar Bərdəyə ezam olunub və zəhmətkeşlərlə görüş keçirib. Oradan qayıtdıqdan sonra Sankt-Peterburqda elmi ezamiyyətdə olub. Həmin müddətdə terapevtlərin Ümumittifaq qurultayında iştirak edib. Oradan isə nümayəndəliyin tərkibində Moskvaya gedərək Rusiyanın nüfuzlu elmi tibb ocaqlarında keçirilən seminarlarda çıxışlar edib.

Əziz Əliyev ADTİ-yə rektor təyin edildikdən az sonra onun rəhbərliyi altında həlli vacib sayılan bütün məsələlər üçün geniş tədbirlər planı hazırlanıb, islahatlar aparılıb. O, azərbaycanlı kadrları işə cəlb edərək onların fəaliyyət dairəsini genişləndirib və ana dilində dərsliklər, dərs vəsaitləri, monoqrafiya və tövsiyələr yazılmasına nail olub. 1932-1935-ci illər ərzində layıb və institut kollektivinin köməyi ilə "Tibb nəşriyyatı" yaradıb. Professorun təşəbbüsü ilə ilk dəfə "Praktiki və nəzəri tibb jurnalı"nın nəşri əsaslı surətdə təkmilləşdirilib. 1935-ci ildə o, jurnalın baş redaktoru təyin edilib. 1933-cü ildə yenə də Əziz Əliyevin təşəbbüsü ilə Tibb İnstitutunda "Tibb kadrları uğrunda" adlı çoxtirajlı qəzetin çapı qaydaya salınıb. Hazırda bu qəzet "Təbib" adı ilə Azərbaycan Tibb Universitetində çap olunmaqdadır. 2003-cü ildə ATU-da "Təbib" qəzetinin yaradılmasının 70 illik yubileyi təntənəli surətdə qeyd edildi və qəzetin ilk yaradıcısı Əziz Əliyevin adı bir daha ehtiramla yad olundu.

Əziz Əliyev hansı ictimai, inzibati, təşkilati işdə çalışsa da, elmi axtarışlarını bir an belə dayandırmayıb. O, institutu bitirəndən iki il sonra -1929-cu ildə namizədlik dissertasiyası, 5 il sonra isə müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə edib. 1933-cü il avqustun 4-dən etibarən Tibb İnstitutunun 61 nömrəli əmrinə əsasən Almaniyada elmi ezamiyyətdə olan Əziz Əliyevin doktorluq dissertasiyası Azərbaycanda ilk dəfə olaraq SSRİ Elmlər Akademiyasının ÜİLKGİ Mərkəzi Komitəsinin mükafatına layiq görülən dəyərli və əhəmiyyətli elmi işdir. Ə.Əliyev 1941-ci il mayın 13-də (Azərbaycan SSR Xalq Səhiyyə Komissarı işləyərkən) SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Rəyasət heyəti nəzdində təşkil edilmiş Elmi Şuranın üzvü, 1956-cı ildə professor vəzifəsinə seçilib və həmin ildə də professor elmi adı təsdiq olunub.

Əziz Əliyevin "Klinik analizlər" adlı dərsliyi tələbələr və gənc həkimlər tərəfindən rəğbətlə qarşılanıb. Onun bir neçə elmi əsəri "Azərbaycan tibb jurnalı"nda çap edilib. Bunların ilk illərdə çap olunanlarına "Həzm zamanı qanın xloridləri" (1928), "Malyariyanın Karno metodu ilə müalicəsi" (1932), "Klinik analizlər üzrə rəhbərlik" (1933) aiddir. Əziz Əliyev uzun müddət eksperimental nefritin öyrənilməsi problemi ilə məşğul olub, elmi işlərinin əsas məğzini bu istiqamətə yönəldib. Əziz Əliyev məharətlə elmi işlərini pedaqoji işlə uzlaşdıra bilib və fakültə terapiyası kafedrasında pedaqoji fəaliyyətini davam etdirib. Belə ki, o, 1 noyabr 1927-ci ildən ADU-nun diaqnostika kafedrasında ordinator və aspirant, 17 oktyabr 1930-cu ildən isə yenicə təşkil edilmiş Azərbaycan Dövlət Tibb İnstitutunun birinci terapiya və diyar patologiyası kafedrasında assistent və dosent vəzifələrində çalışıb.

Ə.M.Əliyevin Tibb İnstitutuna rəhbərlik etdiyi dövrdə 11 doktorluq və xeyli namizədlik dissertasiyası müdafiə edilib. Professorun təşəbbüsü ilə kafedraların nəzdində təsis edilmiş aspiranturada 4 il ərzində 30 tibb elmləri namizədi hazırlanıb. Onlardan 19-u milli kadr olub. O, tibb sahəsi üzrə milli kadr hazırlığını daim ön plana çəkib və onların yetişmələrində müstəsna rol oynayıb. Əziz Əliyev Tibb İnstitutunda təhsil alan tələbələrin həyatı ilə dərindən maraqlanır, gənclərlə bağlı problemlər onu ciddi düşündürürdü. 1933-cü ildə Əziz Əliyevin təklifi, təşəbbüsü və bilavasitə iştirakı ilə indiki Kliniki Tibb Mərkəzinin yaxınlığında "tibb şəhərciyi"nin inşasına başlanılıb. Sonralar həmin "Şəhərcikdə" tələbə yataqxanaları ilə birlikdə nəzəri kafedralar üçün tədris korpusları da tikilib və bu iş ulu öndər Heydər Əliyevin ölkəmizə başçılıq etdiyi dövrdə uğurla başa çatdırılıb.

1933-1934-cü illərdə ölkədə çörək qıtlığı yarandığından tələbələrin güzaranı xeyli ağırlaşıb. Əziz Əliyevin qayğısı sayəsində "Azad qadın" heykəlinin yanındakı məktəbin birinci mərtəbəsində tələbə yeməkxanası təşkil edilib. O, tələbələrə gündə 500-600 qr çörəklə bərabər pulsuz yemək verdirib və onları aclıqdan xilas edib. Əziz Əliyev Tibb İnstitutunda rektorluq fondu yaradıb və həmin fondun hesabına ehtiyacı olan əlaçı tələbələrə hər il pal-paltar, ayaqqabı aldırarmış ki, bu da bir növ tələbələri yaxşı oxumağa sövq edərdi.

Əziz Əliyev hər il Tibb İnstitutunun son kurs tələbələrinin ən bacarıqlılıarını Moskvanın və Sankt-Peterburqun məşhur ali tibb məktəblərinə ezam edər, onlara təcrübə toplamaları üçün əlverişli şərait yaradardı. Belə vaxtlarda o, özünü hərtərəfli xeyriyyəçi kimi aparar, paytaxta gedən tələbələrə pul yardımı edər, onları başdan-ayağa öz hesabına geyindirərdi. Həmin tələbələrin əksəriyyəti sonralar tibbin müxtəlif sahələrində məşhur alim kimi formalaşaraq Əziz Əliyevin yolunu davam etdiriblər.

1936-1940-cı illərdə görkəmli alimin fəal iştirakı ilə malyariya və traxomaya qarşı mübarizəyə başlanılıb. Bacarıqla həyata keçirilən ciddi tədbirlər sayəsində respublikada tüğyan edən bu dəhşətli xəstəliklərin kökü kəsilib. Əziz Əliyevin başçılığı ilə xüsusi dispanserlər, şəhər və kəndlərdə 50 yerlik göz xəstəxanaları açılıb. Bunlar hamısı böyük alimin xeyirxahlıq kəhkəşanlarının cüzi damlalarındandır.

Əziz Əliyev İkinci Dünya müharibəsi illərində alay polkovniki rütbəsində sovet əsgərləri ilə birlikdə siyasi rəhbər kimi Cənubi Azərbaycana yollanıb. Təbrizdə, Urmiyədə, Ərdəbildə, Mərənddə, Zəncanda olub. Onunla birlikdə gedən və mədəni-maarif işi ilə məşğul olan ziyalılardan Süleyman Rüstəm, Osman Sarıvəlli, Qılman Musayev, Ənvər Məmmədxanlı, İsrafil Nəzərov, Əhəd Bağırzadə, Qulam Məmmədli, Mehdixan Vəkilov, Cabbar Məcnunbəyov "Vətən yolunda" qəzetinin redaksiyasında fəaliyyət göstəriblər. Əziz Əliyev Cənubi Azərbaycanda İmran Qasımov, Rəsul Rza, Mehbalı Əmiraslanov və başqaları ilə də yaxın təmasda olub. Onlar Azərbaycanın ağrılarını ürəklərində çəkərək Azərbaycan üçün fədakarcasına çalışıblar.

Əziz Əliyevin fəaliyyət dairəsi olduqca rəngarəng və çoxcəhətli olub. O, müəyyən müddətdə Bakı Dövlət Universitetinin rektoru vəzifəsində çalışıb. Akademik M.Topçubaşov haqlı olaraq yazır ki, "Əziz, Aşıq Ələsgər demişkən, "Hər elmdən hali" idi. Onun hansı İnstitutu bitirdiyini müəyyənləşdirmək çətin idi. Əziz Əliyev bütün sahələrdə özünü yüksək səviyyəli mütəxəssis kimi göstərə bilirdi".

Ə.Əliyev 1941-1942-ci illərdə Azərbaycan KP MK-nın katibi, 1942-1948-ci illərdə isə Dağıstan MSSR Vilayət Komitəsinin birinci katibi vəzifələrində çalışaraq özünü yetkin və bacarıqlı dövlət xadimi kimi göstərə bilib. O, 1949-1950-ci illərdə Moskvada ÜİK(b)P MK-nın inspektoru, 1950-1951-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, sonrakı illərdə Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru, həmçinin Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru vəzifələrində fəaliyyət göstərib. Əziz Əliyev I-II çağırış SSRİ Ali Sovetinin deputatı seçilib. O, həmçinin Azərbaycan SSR Ali Sovetinin I-III çağırış, Dağıstan MSSR Ali Sovetinin II çağırış deputatı olub.

Əziz Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətləri - görkəmli həkim və alim, əla səhiyyə təşkilatçısı və bacarıqlı sərkərdə, dahi sənətkar, səriştəli rəhbər və təcrübəli dövlət xadimi kimi yüksək qiymətləndirilib. O, iki dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni, I dərəcəli Vətən müharibəsi ordeni, "Səhiyyə əlaçısı" döş nişanı, bir çox medallar, o cümlədən 1948-ci ildə "Moskvanın yaranmasının 800 illik xatirə medalı" və çoxsaylı fəxri fərmanlarla təltif edilib.

Dağıstanda işləyərkən Dağıstan zəhmətkeşləri Əziz Əliyevə üzərində onun əksi həkk olunan xüsusi medalyon bağışlayıb və bu xalq məhəbbətindən doğan ali duyğunun təntənəsinə çevrilib. Həmin medalyon Azərbaycanın tarix muzeyində mühafizə olunub saxlanılır. 1960-cı ildə Əziz Əliyevə "Azərbaycan SSR əməkdar həkimi" fəxri adı verilib. Bir müddət rektor kimi fəaliyyət göstərdiyi Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Bakının mərkəzi küçələrindən biri, Mahaçqalada bir küçə Əziz Əliyevin adını daşıyır.

Professor Əziz Əliyevin sevimli həyat yoldaşı Leyla xanımla birgə böyütdükləri mehriban övladları valideyn tərbiyəsinə layiq və sadiq övladlar olmuşdular. Ən şərəflisi və ən əhəmiyyətlisi də odur ki, onların övladları atalarının himayəsinə arxalanmadan, heç kimdən kömək gözləmədən öz istedadları, bacarıqları hesabına ucalıb və onların hər biri öz peşəsi sahəsində uğurlu nailiyyətlər qazanıblar.

Əziz Əliyevin heykəli xalqın qəlbində artıq çoxdan ucaldılıb. Bunu İmran Qasımovun, Süleyman Rüstəmin, Mustafabəy Topçubaşovun, Mirzə İbrahimovun, Rəsul Həmzətovun, Baxış Qəhrəmanovun, Abdulla Quliyevin, Həmid Rüstəmovun, M.S.Umxanovun, Əhməd Musayevin, N.İ.Tufanovun, Əbdülvahab Süleymanovun və başqalarının Əziz Əliyev haqqındakı xatirələrində də aydın müşahidə etmək olar. Akademik M.Topçubaşov Əziz Əliyev haqqında xatirələrində yazır: "Qəribə oğlan idi, Əziz. Təhsildə, əxlaqda, mülayimlikdə, xeyirxahlıqda, işgüzarlıqda tayı-bərabəri yox idi. Təbabətin atası Hippokrat elə bil həkim haqqında andı onun kimilərinə baxıb yazmışdır".

Bəli, onun kimi oğullar dünyaya hər gün gəlmir. Onun kimi oğullar Azərbaycanı yaşadır. Onun kimi oğulları Azərbaycan yaşadır və daima yaşadacaqdır!

1998-ci ilin may ayının 14-də ulu öndər Heydər Əliyevin sərəncamı ilə dövlət səviyyəsində Ə.M.Əliyevin anadan olmasının 100 illik yubileyi təntənə ilə qeyd edildi. Yubiley təntənələrində çıxış edən ümümmilli liderimiz Əziz Əliyevin zəngin həyat yolunun və dəyərli yaradıcılığının bizə məlum olmayan məqamlarının incəliklərindən ətraflı söhbət açdı. Bir müddət repressiyaya məruz qalmış Əziz Əliyevin dözümü, polad iradəsinin mətin cizgiləri gözlərimiz önündə canlandı. XX əsrin 30-cu illərinin agır repressiya illərində Azərbaycanda milli həkim kadrlarının böyük bir dəstəsini haqsız işgəncələrdən, vaxtsız ölümdən xilas etmiş Əziz Əliyevin özü 50-ci illərin əvvəllərində haqsız olaraq təqiblərə məruz qalmışdır. Bu haqda danışarkən ulu öndər demişdir: "Əziz Əliyev mənə danışırdı ki, o, 1938-ci il repressiyasından möcüzə nəticəsində xilas olmuşdur. Onu sonralar, 50-ci illərin əvvəlində repressiya etdilər. İşdən çıxarıb Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutunun direktoru təyin etdilər, amma tezliklə bu vəzifədən də çıxardılar. Professoru, elmlər doktorunu, bu qədər xidmətləri olan bir insanı Sabunçu xəstəxanasına adi həkim göndərdilər və o, üç il orada işlədi" Lakin xoşbəxtlikdən bu uzun sürmədi və o, yenidən öz layiqli qiymətini aldı, onun əvvəlki şan-şöhrəti özünə qaytarıldı. Səməd Vurğunun "Günəşi örtsə də qara buludlar, yenə günəş adlı bir qüdrəti var" misraları yada düşdü.

Ümummilli lider Heydər Əliyev Əziz Əliyevin yubiley gecəsində çıxış edərkən alimə xas olan xüsusiyyətlərin incəliklərinə yaxşı bələd olduğunu söyləmiş və onun insani keyfiyyətlərindən danışmışdır: "Azərbaycanda və Dağıstanda işlədiyi illərdə o, elm xadimləri ilə çox sıx təmasda olurdu. Bütün tibb professorları onun dostları idi, onların çoxunu o hazırlayıb irəli çəkmişdi. Azərbaycan incəsənəti və ədəbiyyatının Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Bülbül, Niyazi, Səməd Vurğun, Süleyman Rüstəm, Qara Qarayev və bir çox başqaları kimi görkəmli xadimlərlə onun çox yaxın, mehriban, ailəvi münasibətləri vardı. Bütün bunlar ona görə olurdu ki, o, çox ziyalı bir adam idi, yuksək səviyyədə savadlı, mədəni adam olduğuna görə həmişə məhz bu mühitlə təmasda olmağa çalışırdı. Həmin adamlar da onunla yaxın olmaq istəyirdilər. O, hər cəhətdən gözəl insan idi".

Son dərəcə çətin, eyni zamanda şərəfli bir ömür yaşayan, kələkötür yollardan keçib zirvələrə yüksələn Əziz Əliyev Azərbaycan səhiyyəsində, Azərbaycanın tibb aləmində əbədiyaşarlıq qazanmış bir şəxsiyyətdir. Onun ömür yolu gənclərimizə örnək, gələcəyimizə çıraqdır.

***Əhliman ƏMİRASLANOV,***
***akademik, SSRİ Dövlət mükafatı laureatı***